AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# KAMAL ABDULLANIN NƏSRİNDƏ TARİXİ VƏ MİFOLOJİ YADDAŞ PROBLEMİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Sadıq Zaman oğlu Qarayev**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Universitetinin Azərbaycan dili və ədəbiyyat kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Vaqif Soltan oğlu Verdiyev**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Bədirxan Balaca oğlu Əhmədov**

filologiya elmləri doktoru, professor
**Leyla Məcid qızı İmaməliyeva**

filologiya üzrə fəlsəfə doktoru
**Samirə Məhəmməd qızı Məmmədova**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31–Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Rafael Baba oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru
**İlhamə Mürsəl qızı Gültekin**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
**Cəlil Qərib oğlu Nağıyev**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı sürətlə dəyişən ədəbi mənzərəsi, plüralist mühiti, yeni poetik mündəricə və obrazlar sistemi ilə diqqət mərkəzindədir. Bu ədəbiyyat bir tərəfdən xalqın keşməkeşli taleyinin, cəmiyyət həyatında baş verən qlobal çevrilişlərin aynasına çevrilməsi, digər tərəfdən bəhrələndiyi çeşidli ədəbi qaynaqlar, inteqrasiya etdiyi yeni estetik konsepsiyalarla maraqlıdır. Bədii düşüncə ədəbi-tarixi mövqeyini bu istiqamətdə formalaşdırdıqca, görkəmli sənət nümayəndələrinin yaradıcılığı Azərbaycanın hüdudlarından kənarda da xüsusi rəğbətlə qarşılanır.

Milli ədəbiyyatımızın belə məhsuldar qələm sahiblərindən olan Əməkdar elm xadimi, Xalq yazıçısı Kamal Abdulla çağdaş ədəbi-estetik fikri yeni fəlsəfi konsepsiya və düşüncə modelləri ilə formalaşdıran novator sənətkardır. Söz sənətinin bütün sahələrində məhsuldar fəaliyyəti ilə seçilən yazıçı nəsr yaradıcılığında böyük uğurlara imza atmış, qələmə aldığı bədii nümunələr dərin fəlsəfi-estetik məzmun, fərqli düşüncə qəlibləri ortaya qoyaraq ədəbi prosesi çağdaş dünya ədəbiyyatşünaslığının aparıcı tendensiyaları ilə cilalamışdır. Çağdaş Qərb ədəbiyyatının estetik axtarışlarından yaradıcılıqla bəhrələnən bu əsərlər milli nəsrin salnaməsinə xüsusi töhfələr vermiş, əksər ədəbiyyatşünas alim və tənqidçilər tərəfindən, haqlı olaraq, bədii düşüncə kontekstində indiyədək müşahidə olunmamış ədəbi hadisə kimi dəyərləndirilmişdir. Bu cəhətlər Kamal Abdullanın nəsr yaradıcılığının çağdaş ədəbiyyatşünaslıq elminin aktual mövzularından biri kimi tədqiqinin perspektivliyini artırır.

Müstəqilliyimizin bərpasından sonra qarşısına yeni vəzifələr qoyulmuş bədii nəsr itirilmiş yaddaşı bərpa etmək məqsədi ilə keçmişin miqyaslı hadisələrinə müraciət etmiş, qədim məxəzlərdən, arxiv sənədlərindən dəyərli fakt alaraq xalqımızın etnoqrafik yaddaşını, görkəmli şəxsiyyətlərin obrazlarını müxtəlif aspektlərdən bədii təhlil müstəvisinə cəlb etmişdir. Milli tarix salnaməsinin aktual problemlərini bədiiləşdirən bu mətnlər geniş məzmun-mündəricə sərgiləsə də, tarixi nəsr daha çox köhnə forma-məzmun komponentləri ilə təcəssüm tapırdı. Zamanın fəlsəfəsini ortaya

qoymağa cəhd göstərən çağdaş bədii təfəkkür isə öz inkişafını fərqli düşüncə stereotipləri istiqamətində davam etdirməyi, tarixi yaddaşı yeni baxış müstəvisində dəyərləndirməyi diktə edirdi.

Milli tarix konseptinin bədii-estetik funksionallığındakı bu kimi məqamlar daha çox Xalq yazıçısı Kamal Abdullanın nəsr yaradıcılığında müşahidə olunur. Tarixi yaddaşa yeni poetik baxış bucağı, modern düşüncə stereotipləri bəxş edən bu nəsr əsərləri müstəqillik dövrü Azərbaycan ədəbiyyatının ən parlaq nümunələrindəndir. Epik növün bütün janrlarını əhatə edən mətnlərdə tarixi kontekstə sərbəst yanaşma nəsrin poetikasını zənginləşdirmiş, əski kanonlar yeni ədəbi-estetik məzmunla əvəzlənmişdir. Yazıçının tarixi konsepti bədii tədqiq obyektinə çevirən məhsuldar yaradıcılıq fəaliyyəti – çeşidli nəsr əsərləri, o cümlədən məşhur "Yarımçıq əlyazma" romanı tarixi-mifoloji konteksti postmodernist prizmasından dəyərləndirərək yeni təfəkkür sisteminin milli söz sənətində bütün çalarları ilə intişar tapmasına rəvac vermişdir. Sadalanan amillər Kamal Abdullanın nəsrində tarixi yaddaşın tədqiqini elmi-nəzəri fikrin qarşısında duran mühüm mövzulardan birinə çevirir.

Xalq yazıçısı Kamal Abdullanın bədii nəsrində neomifoloji təfəkkür sisteminə müraciət yüksək poetik potensialı ilə diqqət çəkir, həyat faktları mifopoetik məcraya yönəlir. Qədim mətnlərdən, antik miflərdən mövzu əxz edən bədii fakt nümunələri ədəbi fikrə dərin fəlsəfi mündəricə, mükəmməl forma-üslub çalarları bəxş edir, bədii-estetik siqləti ilə müasir ədəbi prosesin ən yaxşı nümunələri səviyyəsinə yüksəlir. Məhz bu cəhətləri ilə Kamal Abdullanın nəsr yaradıcılığında mifoloji motivlərin müasir dərki çağdaş ədəbiyyatşünaslıq elminin aktual mövzuları sırasında potensial bazası ilə diqqət çəkir. Yazıçının ədəbi düşüncəsinin başlıca məziyyətlərindən olan mifologizmin tarixiliklə bir məcrada qovuşması Kamal Abdullanın bədii nəsrində mifoloji yaddaşla tarixi yaddaşın eyni təhlil müstəvisində tədqiq edilməsini əsaslandırır.

Dissertasiyanın tədqiq səviyyəsinin göstəriciləri əsasən iki başlıca komponenti – müasir Azərbaycan nəsrinin inkişaf xüsusiyyətləri və Kamal Abdullanın nəsr yaradıcılığının tədqiqini birləşdirir. Mövzunun giriş xarakteri daşıyan ilk fəslində müstəqillik

dövrü Azərbaycan nəsrinin spesifik özəllikləri sırasında tarixi və mifoloji konsept araşdırıldığı üçün bu istiqamətdə elmi tədqiqatlar aparmış ədəbiyyatşünas alimlərin, o cümlədən Y.Axundov, Y.Qarayev, M.Arif, M.Cəfər, A.Hüseynov, T.Hüseynoğlu, Q.Xəlilov, T.Əlişanoğlu, Elçin, N.Paşayeva, Q.Qasımzadə, H.Ənvəroğlu, Q.Kazımov, V.Quliyev, T.Salamoğlu, N.Qəhrəmanlı, E.Mehrəliyev, V.Yusifli, E.Akimova, İ.Musayeva, S.Şərifzadə, Y.Rzayev, B.Əsgərov, həmçinin tanınmış söz sənətkarlarının, o cümlədən Kamal Abdullanın yaradıcılığı ilə bağlı faydalı elmi materialların yer aldığı ikicildlik "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabları [1] [2], mövzunun araşdırılmasına yardımçı olmuşdur.

Xalq yazıçısı Kamal Abdullanın yaradıcılığı hələ onun ədəbi tənqid fəaliyyəti ilə məşğul olduğu vaxtlardan elmi ictimaiyyətin, tanınmış ədəbiyyatşünas alimlərin diqqətini çəkmişdir. Ədibin poeziya və dramaturji yaradıcılığı geniş təhlillərə, problem səciyyəli araşdırmalara rəvac vermişdir. Yazıçının nəsr yaradıcılığı daha geniş və əhatəli şəkildə tədqiqata cəlb olunmuş, bu barədə yeni elmi qənaətlər son illər qələmə alınmış dissertasiya işlərinin bölmələrində və monoqrafik əsərlərdə öz əksini tapmışdır. Eləcə də Kamal Abdullanın yaradıcılığı haqqında çoxlu sayda kitab nəşr olunmuşdur. Bunların sırasında Rüstəm Kamalın "Kamal Abdulla: Yazıdan mifə"[3], Asif Hacılının "Kamal Abdulla: seçimin morfologiyası"[4], Elçin Səlcuqun "Kədərin sirri"[5], Araz Əhmədoğlunun "Sehrbazlar dərəsi. İç-içə sirlər dünyası"[6], "Yarımçıq əlyazma. Şahəsərin

---

[1] Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə] / elmi redaktoru İ.Həbibbəyli. – Bakı: Elm və Təhsil, – c. 1. – 2016. – 800 s.

[2] Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə] / elmi redaktoru İ.Həbibbəyli. – Bakı: Elm və Təhsil, – c. 2. – 2016. – 1088 s.

[3]Kamal, R. Kamal Abdulla: Yazıdan mifə / R.Kamal. – Bakı: Mütərcim, – 2011. – 116 s.

[4] Hacılı, A. Kamal Abdulla: seçimin morfologiyası / A.Hacılı. – Bakı: Mütərcim, – 2010. – 132 s.

[5] Səlcuq, E. Kədərin sirri (ədəbi-bədii esse) / E.Səlcuq. – Bakı: "XXI"-YNE, – 2005. – 288 s.

[6] Əhmədoğlu, A. Sehrbazlar dərəsi. İç-içə sirlər dünyası (Kamal Abdullanın Sehrbazlar dərəsi romanı haqqında monoqrafiya) / A.Əhmədoğlu. – Bakı: Mütərcim, – 2017. – 216 s.

Şahəsəri” [7] (İran), Lyudmila Bejenarunun “Kamal Abdulla: Bütövlüyün fəlsəfəsi” (Rumıniya), Mehman Musaoğlunun “Kamal Abdullanın əsərləri Türkiyə türkcəsində” [8] (Türkiyə), məşhur türkoloq Ahmet Ercilasun redaktorluğu ilə nəşr olunan “Mifologiya elçisi Kamal Abdulla ərmağanı”[9] (Türkiyə) kitablarında ədibin bədii yaradıcılıq poetikası müasir elmi-nəzəri prinsiplər müstəvisində səciyyələndirilmişdir.

Xalq yazıçısı Kamal Abdulla Azərbaycan ədəbiyyatında yeni düşüncə fəlsəfəsinin – postmodernist estetikanın bünövrə daşlarını qoyan novator sənətkardır. Yazıçının nəsr yaradıcılığında postmodernist konsepsiyanın ədəbi-estetik baxımından dərk edilməsi üçün yeni düşüncə sisteminin tədqiqi ilə məşğul olmuş tanınmış ədəbiyyatşünas alimlərin elmi-nəzəri araşdırmalarına nəzər yetirilmiş, problemin öyrənilməsi prosesində maraqlı tədqiqat nümunələri kimi P.Anderson, H.Bertens, Ç.Donovan, İ.Hassan, B.Martin, B.Makheyl, H.Kevin, İ.İlin, N.Mankovskaya, V.Kutırev, U.Eko, Q.Quliyev və digər ədəbiyyatşünas alimlərin əsərlərindən istifadə edilmişdir. Bununla yanaşı, akademik Kamal Abdullanın elmi yaradıcılığı, o cümlədən “Gizli Dədə Qorqud”[10], “Sirriçində dastan və yaxud gizli Dədə Qorqud – 2”[11], “Mifdən Yazıya və yaxud Gizli Dədə Qorqud”[12], “Kitabi-Dədə Qorqud” poetikasına giriş. Dansökülən variant”[13] kimi sanballı əsərləri problemə müasir ədəbi baxış bucağından yanaşmağa yardım etmişdir.

---

[7] Əhmədoğlu, A. Yarımçıq əlyazma. Şahəsərin Şahəsəri (Kamal Abdullanın Yarımçıq əlyazma romanı haqqında monoqrafiya) / A.Əhmədoğlu. – Bakı: Mütərcim, – 2017. – 224 s.

[8] Musaoğlu, M. Kemal Abdullanın eserleri Türkiye türkçesinde / M.Musaoglu. – Ankara: BRC basım, – 2010. – 207 s.

[9] Mitolojinin elçisi, Kamal Abdulla armağanı / tert. ed. A.Ercilasun. – İstanbul: Türk Edebiyatı Vakfı Yayınları, – 2020. – 564 s.

[10] Abdullayev, K. Gizli Dədə Qorqud / K.Abdullayev. – Bakı: Yazıçı, – 1991. – 152 s.

[11] Abdulla, K. Sirriçində dastan və yaxud gizli Dədə Qorqud – 2 / K.Abdulla. – Bakı: Yeni Nəşrlər Evi, “Elm”, – 1999. – 288 s.

[12] Abdulla, K. Mifdən Yazıya və yaxud Gizli Dədə Qorqud / K.Abdulla. – Bakı: Mütərcim, –2009. – 375 s.

[13] Abdulla, K. “Kitabi-Dədə Qorqud” poetikasına giriş. Dansökülən variant / K.Abdulla. – Bakı: RS Poliqraf, – 2017. – 320 s.

Kamal Abdullanın bədii yaradıcılığının təkcə Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da dəfələrlə nəşr olunması bu əsərlərin xarici ölkə tənqidçiləri tərəfindən yeni ədəbi-estetik baxış prizmasından araşdırılmasına rəvac vermişdir. Onlardan Franko Kardini (İtaliya), Lyudmila Bejenaru, Liviya Kotorça (Rumıniya), Lev Anninski, Anastasiya Yermakova, Lyuddmila Lavrova, Yuri Polyakov (Rusiya), Arif Acaloğlu, Ahmet Ercilasun, Mehman Musaoğlu (Türkiyə), Sudha Svarnakar (Braziliya), Maks Statkeviç (ABŞ) və digər görkəmli tədqiqatçıların ədibin nəsr yaradıcılığı haqqında mülahizələri problemin araşdırılmasında dəyərli mənbələr sırasında olmuşdur.

Göründüyü kimi, ayrı-ayrı ədəbiyyatşünas alim və tənqidçilər Kamal Abdullanın nəsr yaradıcılığını müxtəlif aspektlərdən elmi təhlillərə cəlb etsələr də, yazıçının bədii nəsri tarixi-mifoloji kontekst çərçivəsində ayrıca tədqiqat obyekti olmamış, mövzu indiyədək sistemli şəkildə araşdırılmamışdır. Bu cəhətdən, təqdim edilən dissertasiya Kamal Abdullanın bədii nəsrini analitik təhlil süzgəcindən keçirərək tarixi və mifoloji yaddaş probleminin araşdırılması irsinə geniş və fundamental elmi yanaşmadır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın əsas obyektini Kamal Abdullanın nəsr əsərləri təşkil edir. Yazıçının "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", "Unutmağa kimsə yox...", "Sirlərin sərgüzəşti" romanları, həmçinin ədibin tarixi-mifoloji yaddaş kontekstində qələmə aldığı hekayələri tədqiqata cəlb olunur. Dissertasiyanın predmetini isə həmin bədii örnəklərdə tarixi-mifoloji konseptin işlənmə dərəcəsi, problemin qoyuluş ənənəsi, ədibin tarixi mövzu və mifologiyaya yanaşma tərzini səciyyələndirmək təşkil edir. Təhlil prosesində tənqidçi və ədəbiyyatşünas alimlərin yazıçının yaradıcılığı, onun nəsr əsərləri haqqında elmi mülahizələri, monoqrafik araşdırmaları tədqiqat predmetinə cəlb olunur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada görkəmli Azərbaycan yazıçısı Kamal Abdullanın nəsr yaradıcılığını tarixi-mifoloji kontekstdə sistemli və kompleks şəkildə təhlil etmək, ədibin ayrı-ayrı nəsr əsərlərində problemə yanaşma tərzini şərh etmək başlıca məqsəd kimi qarşıya qoyulmuşdur. Tədqiqat işinin məqsədi

bir sıra konkret elmi vəzifələrin həllini diktə edir ki, onları aşağıdakı kimi sıralamaq mümkündür:

– Müasir ictimai-siyasi proseslərin bədii düşüncəyə təsirini, çağdaş nəsrin inkişaf xüsusiyyətlərini təhlil etmək;

– Müstəqillik dövrü Azərbaycan nəsrində tarixi yaddaşın işlənmə dərəcəsi və xüsusiyyətlərini, problemin qoyuluş ənənələrini müəyyənləşdirmək, bu istiqamətdə qələmə alınmış romanların fərqli aspektlərini, bədii-estetik əhəmiyyətini müasir elmi-nəzəri prinsiplər çərçivəsində səciyyələndirmək;

– Müasir Azərbaycan nəsrində mifopoetik yaradıcılığın təkamül strukturunun, mif və bədii söz sənətinin qarşılıqlı münasibətlərinin elmi-nəzəri şərhi;

– Kamal Abdullanın bədii yaradıcılıq təkamülünün başlıca prinsip və meyarlarını təhlil etmək, ədibin bədii nəsrə gəlişinin səbəblərini, bu yaradıcılıq yolunu şərtləndirən başlıca amilləri müəyyənləşdirmək;

– Yazıçının nəsr yaradıcılığının əsas meyil və istiqamətlərini, bədii tapıntılarını, ədəbi axtarışlarının səciyyəvi əlamətlərini şərh etmək;

– Kamal Abdullanın bədii nəsrini müasir Azərbaycan ədəbiyyatı kontekstində təhlil etmək, bu yaradıcılığın ideya-bədii xüsusiyyətlərini, çağdaş Qərb ədəbiyyatının mütərəqqi ənənələrindən yaradıcılıqla bəhrələnməsini nəzərə çatdırmaq;

– Kamal Abdullanın milli ədəbiyyatda postmodernizmin əsas nümayəndəsi kimi yeri və mövqeyini müəyyənləşdirmək, yazıçının nəsr əsərlərində postmodernist poetikasının xüsusiyyətlərini təhlil etmək, yeni estetik cərəyanın milli cizgi və əlamətlərini yaradan bu yaradıcılığın çağdaş bədii düşüncəyə təsirini araşdırmaq;

– Kamal Abdullanın bəhrələndiyi ədəbi mənbələri üzə çıxarmaq, tarixi qaynaqların, qədim mifoloji mətnlərin bu yaradıcılıqda funksiyasını, işlənmə dərəcəsini müəyyən etmək;

– Tarixi yaddaşın yazıçının nəsr yaradıcılığında başlıca əlamət və keyfiyyətlərini konkretləşdirmək, ədibin mövzuya yanaşma üslubunu nəzərdən keçirmək, tarixi-mifoloji kontekst ilə çağdaş dövr arasında bədii-estetik əlaqələri şərh etmək;

– Ədibin mifopoetik yaradıcılığının bədii-estetik təkamülünü, mövzuya yanaşma üslubunu müasir elmi-nəzəri təfəkkür işığında üzə çıxarmaq;

– Kamal Abdullanın bədii nəsrində insan və cəmiyyət münasibətlərinin bədii-fəlsəfi inikas özəlliklərini təhlil etmək, yazıçının əsərlərində qəhrəman probleminin qoyuluşunu, tarixi və mifoloji obraz yaratmaq xüsusiyyətlərini şərh etmək, müqayisə və paralellər aparmaq;

– Yazıçının hekayələrində tarixi və mifoloji yaddaşın bədii-fəlsəfi funksiyası və mahiyyətini şərh etmək;

– "Yarımçıq əlyazma" romanını postmodernizm və milli tarix müstəvisində təhlil etmək;

– Ədibin "Sehrbazlar dərəsi" əsərini mifik-fəlsəfi problemlər kontekstində araşdırmaq;

– "Unutmağa kimsə yox..." romanında paralel dünyalar konsepsiyasının özəlliklərini şərh etmək, əsərin bu tipli bədii nümunələrlə müqayisəli təhlilini aparmaq;

– Kamal Abdullanın bütövlükdə nəsr yaradıcılığını tarixiliklə müasirliyin vəhdəti çərçivəsində dəyərləndirmək.

**Tədqiqat metodları.** Mövzunun metodoloji arsenalını milli və dünya ədəbiyyatşünaslığının mütərəqqi elmi nailiyyətləri, əsas baza və nəzəri prinsipləri müəyyənləşdirir. Tədqiqat prosesində mövzunun xarakter və istiqamətinə uyğun olaraq analitik-nəzəri, ədəbi-tarixi təhlil metodları əsas prinsip kimi seçilmişdir. Mövzunun təhlilində təkcə Kamal Abdullanın nəsr əsərlərinin deyil, bu kontekstdə yazılmış digər bədii nümunələrin də müqayisəli tədqiqi tarixi-müqayisəli təhlil metodunu ön sıralara çıxarmış, dissertasiya həmçinin postmodernizmin aktual problemlərini əks etdirən elmi-nəzəri mənbələrə istinad etmişdir. Geniş elmi təhlillərə imkan açan tədqiqat işində tanınmış ədəbiyyatşünas alimlərin Kamal Abdullanın nəsr yaradıcılığına həsr etdikləri araşdırmalar dissertasiyanın elmi-metodoloji bazasını zənginləşdirərək nəzəri ümumiləşdirmələr aparmağa yardım edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Xalq yazıçısı Kamal Abdullanın bədii nəsrinin əsas inkişaf xüsusiyyətlərinin araşdırılması, bu yaradıcılıqda tarixi və mifoloji yaddaş probleminin

geniş və əhatəli şəkildə tədqiqi bir sıra müddəaların müdafiəyə çıxarılmasını şərtləndirmişdir ki, onları aşağıdakı kimi sıralamaq olar:

– Kamal Abdullanın nəsr yaradıcılığının formalaşmasında yazıçının bütövlükdə elmi-bədii fəaliyyətinin, ədəbi mühitin və çağdaş Qərb ədəbiyyatının təsirlərini araşdırmaq;

– Ədibin bədii nəsrinin novatorluq xüsusiyyətlərinin aparıcı cizgilərini, yazıçının müstəqillik dövrü Azərbaycan ədəbiyyatının inkişafında rolunu müəyyənləşdirmək;

– Kamal Abdullanın nəsr yaradıcılığının milli postmodernist ədəbiyyatın bərqərar olması və formalaşması prosesinə təsirini əsaslandırmaq;

– Ədibin postmodernist konsepsiyanın əsas prinsiplərini ehtiva edən nəsr əsərləri haqqında elmi-nəzəri fikirdə formalaşan fərqli mülahizələri, ziddiyyətli və qeyri-obyektiv qənaətləri çağdaş elmi-nəzəri baxış bucağından dəyərləndirmək;

– Yazıçının tarixi yaddaşdan, mifopoetik düşüncədən mövzu alan nəsr əsərlərində bədii-fəlsəfi məzmun və ümumbəşəri dəyərlərin inikasını, Şərq-Qərb konsepsiyasının qoyuluşunu, insan amilinə yeni baxışı şərh etmək;

– Kamal Abdullanın yaradıcılığında intişar tapan tarixi-mifoloji kontekstin qoyuluş ənənəsini, səciyyəvi xüsusiyyətlərini araşdırmaq, mif və bədii mətn arasında qarşılıqlı əlaqələri şərh etmək;

– Yazıçının bədii nəsrində müasirlik problemini ən mühüm prinsip kimi diqqət mərkəzinə gətirmək.

**Tədqiqatın elmi yeniliyi.** Milli söz sənətinin keçilmiş mərhələləri, o cümlədən XX əsr ədəbiyyatı indiyədək müxtəlif istiqamətlər üzrə fundamental şəkildə araşdırılmış, bu tədqiqatların nəticəsi olan çoxsaylı monoqrafik nümunələr dövrün ədəbi mənzərəsi haqqında dolğun və hərtərəfli elmi təsəvvürlər formalaşdırmışdır. Ədəbi fəaliyyətini həmin mərhələnin təcrübəsi üzərində quran yeni əsrin ədəbiyyatı isə yaşam məqamını davam etdirməkdədir. Bu ədəbiyyatın inkişaf xüsusiyyətləri indiyədək müşahidə olunmayan düşüncə stereotipləri, ədəbi cərəyanlar, müxtəlif ideyalar istiqamətində zənginləşdikcə onun formalaşma prosesi davam edəcəkdir. Bu qəbildən dissertasiyada müstəqillik dövrü Azərbaycan

nəsrinin inkişaf istiqamətlərinin araşdırılması, bədii düşüncənin yönləndirilməsinə məhsuldar fəaliyyəti ilə töhfə verən söz ustadlarının yaradıcılığının müasir problemlər çərçivəsində təhlili milli ədəbiyyatşünaslıq elminin bazasını zənginləşdirən mühüm yeniliklər sırasındadır.

Təqdim olunan dissertasiyanın elmi əhəmiyyəti bu kimi xüsusiyyətlərlə səciyyələnsə də, mövzunun əsas elmi yeniliyi Kamal Abdullanın bədii nəsrində tarixi və mifoloji yaddaş probleminin ilk dəfə sistemli şəkildə tədqiqə cəlb olunması ilə şərtlənir. İndiyədək görkəmli Azərbaycan nasirinin bədii yaradıcılığı, ayrı-ayrı nəsr əsərləri ədəbiyyatşünaslıq elmi və ədəbi tənqidin təhlil müstəvisində fəal araşdırma predmeti olsa da, yazıçının bütövlükdə nəsr yaradıcılığı tarixi-mifoloji aspektdə geniş və sistemli şəkildə tədqiqata cəlb olunmamışdır. Kamal Abdullanın bütövlükdə bədii yaradıcılığının ardıcıl və kompleks şəkildə təhlil olunması tədqiqatın orijinallığını şərtləndirən cəhətlərdəndir. Yazıçının nəsr əsərlərində postmodernist poetikasının təzahür formaları, tarixi-mifoloji kontekstin qoyuluş ənənəsi, bədii mətnin toxumasında mif motivləri və arxaik obrazların transformasiyası, insan-cəmiyyət problemlərinin müasirlik kontekstində araşdırılması tədqiqat işinin elmi yenilikləri sırasındadır. Həmçinin bu kontekstdə müstəqillik dövrü Azərbaycan ədəbiyyatının inkişaf xüsusiyyətlərinin araşdırılmasını, ayrı-ayrı sənətkarların nəsr əsərlərində tarix konseptinin müasir elmi-nəzəri prinsiplər çərçivəsində təhlilə çəkilməsini elmə gətirilən yeniliklərdən hesab etmək olar.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi bir sıra nəzəri və elmi-praktiki əhəmiyyətə malikdir. Dissertasiya, hər şeydən əvvəl, Kamal Abdullanın bədii nəsrinin əsas inkişaf xüsusiyyətlərinin araşdırılmasında, bu yaradıcılığın tarixi və mifoloji yaddaş kontekstində sistemli şəkildə öyrənilməsində faydalı mənbə rolunu oynaya bilər. Eyni zamanda tədqiqat işindən müstəqillik dövrü Azərbaycan nəsrinin tarixi və mifopoetik kontekstdə dəyərləndirilməsində, bu nəsrin inkişaf təkamülünün yenidən səciyyələndirilməsində yararlanmaq mümkündür. Bu cəhətlər tədqiqat işindən ali və orta ixtisas təhsil müəssisələrində müasir Azərbaycan ədəbiyyatının tədrisi prosesində əlavə dərs vəsaiti kimi

yararlanmağın mümkünlüyünü ortaya çıxarır. Həmçinin dissertasiyanın elmi müddəaları və nəticələrindən çağdaş Azərbaycan ədəbiyyatının problemləri ilə əlaqəli xüsusi seminar və kurslarda istifadə edilə bilər. Dissertasiyanın təhlil istiqamətləri və elmi-nəzəri yeniliklərindən müstəqil tədqiqatçıların faydalanması mümkündür.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları, elmi yenilik və yekun nəticələri tezis, məqalələr şəklində Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının reyestrinə daxil olan elmi məcmuələrdə, respublika və beynəlxalq əhəmiyyətli konfrans və simpozium materiallarında əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Universitetinin Azərbaycan dili və ədəbiyyat kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Tədqiqat işi Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə uyğun şəkildə yazılmışdır. Dissertasiya işi giriş (21035 şərti işarə), üç fəsil (birinci fəsil – 59000 şərti işarə; ikinci fəsil – 103230 şərti işarə; üçüncü fəsil – 90385 şərti işarə), nəticə (13550 şərti işarə) və istifadə edilmiş ədəbiyyat sıyahısı olmaqla, ümumilikdə 287200 şərti işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın işlənmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, araşdırmanın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti şərh olunur.

Dissertasiyanın **"Müasir Azərbaycan nəsri tarixi-mifoloji düşüncə kontekstində"** adlanan birinci fəslində müasir ictimai-siyasi proseslərin bədii düşüncəyə təsiri, çağdaş nəsrin inkişaf xüsusiyyətləri təhlil edilmişdir. Fəslin *"Müstəqillik dövrü Azərbaycan romanı: tarix və müasirlik"* adlı ilk paraqrafında çağdaş Azərbaycan nəsrinin spesifik özəllikləri sırasında tarixi və mifoloji konsept araşdırılır. Bildirilir ki, müstəqillik illərində bədii nüfuz kəsb

edən roman janrı tarixi və mifoloji yaddaşın xüsusiyyətlərini, problemin qoyuluş ənənəsini müəyyənləşdirmək üçün zəngin material verir. Bu cəhət nəzərə alınaraq çağdaş Azərbaycan nəsrinin elmi-nəzəri və analitik təhlilində roman janrı tarix və müasirlik kontekstində tədqiq edilmişdir. Ayrı-ayrı sənətkarların (Əzizə Cəfərzadə, İsmayıl Şıxlı, Elçin, Anar, Mövlud Süleymanlı, Maqsud İbrahimbəyov, Mustafa Çəmənli, Aqil Abbas, Yunis Oğuz, İlqar Fəhmi, Elçin Hüseynbəyli və b.) romanlarında tarixi konseptin müasir elmi-nəzəri prinsiplər çərçivəsində təhlilə çəkilməsi milli nəsrin inkişaf tendensiyası, bədii təkamül istiqamətləri haqqında dolğun ədəbi mənzərə canlandırmışdır.

Aparılan təhlillər çağdaş Azərbaycan nəsrinin bədii taleyini bütün yönləri ilə təcəssüm etdirdiyini, epik janrların potensiyasının fəallaşdığını ortaya qoymuşdur. Müstəqillik illərində roman janrı poetik miqyasını əsasən tarixi kontekstdə genişləndirmiş, yığcam və bitkin bədii forma xüsusiyyətləri kəsb edərək janrın dinamikliyinə xidmət etmişdir. Bu təkamül mərhələsində ənənəvi yeni roman modelləri, o cümlədən postmodernist romanın milli ədəbi düşüncənin tədqiqat dairəsinə daxil olması Azərbaycan nəsrini əvvəlki dövrlərdə müşahidə olunmayan bədii mündəricə, fəlsəfi-estetik çalarlarla cilalamış, müasirlik problemi ən mühüm prinsip kimi diqqət mərkəzinə gətirilmişdir.

Birinci fəslin *"Çağdaş Azərbaycan nəsri və Kamal Abdullanın bədii yaradıcılığı"* adlı ikinci paraqrafında Xalq yazıçısı Kamal Abdullanın bədii yaradıcılıq axtarışları, ədəbi-estetik fikrin tədqiqat obyektinə gətirdiyi yeniliklər, milli və dünya ədəbiyyatında mövqeyi müasir elmi-nəzəri prinsiplər çərçivəsində təhlil edilmişdir. Yazıçının nəsr yaradıcılığına gəlişinin səbəblərini araşdırmaq, bu sahədə axtarışlarının başlıca meyil və istiqamətlərini müəyyənləşdirmək üçün Kamal Abdullanın bütövlükdə bədii yaradıcılıq təkamülünə nəzər salınmış, bu dərin bədii-estetik məzmunun Kamal Abdullanın bədii nəsri üçün ədəbi hazırlıq, mükəmməl baza olduğu təsdiqlənmiş, ədibin bir nasir kimi potensialı, bədii imkanları ortaya qoyulmuşdur.

Çağdaş Qərb ədəbiyyatının mütərəqqi ənənələrindən yaradıcılıqla bəhrələnən yazıçı hekayə janrında dərin fəlsəfi düşüncələr, fərqli kulturoloji yanaşmalar ortaya qoyur, geniş

mövzuların kiçik mətnlərə yerləşdirilməsi janrın çevikliyini artırır. Tarixi və mifoloji yaddaşın parlaq səhifələrindən, dünya ədəbiyyatı məxəzlərindən mövzu əxz edən hekayələr yazıçının ədəbi-fəlsəfi dünyagörüşünü, estetik duyumunu dolğunluqla ifadə edir, ədəbi-estetik təfəkkürə yeni poetik nəfəs gətirir. Beləliklə, *"Azərbaycan ədəbiyyatında postmodernizm estetikası ilk olaraq Kamal Abdulla yaradıcılığında gerçəkləşir"* [14].

Bədii nəsrin bütün janrlarına böyük məsuliyyətlə yanaşan K.Abdullanın "Tarixsiz gündəlik" povestində ömrün ilk gənclik çağları məhrəm duyğularla vərəqlənir, fərdi yaddaşa, xatirələrə müraciət edilir.

Kamal Abdullanın milli ədəbi düşüncəmizin tükənməz qaynağı olan "Dədə Qorqud" boylarının motivləri əsasında qələmə aldığı "Yarımçıq əlyazma" romanı bədii-estetik düşüncədə uğurlu ədəbi hadisə kimi mühüm yer tutmuş, tanınmış tənqidçi və ədəbiyyatşünas alimlər tərəfindən *"postmodernizmin ən parlaq nümunəsi"* kimi həqiqi qiymətini almışdır. *"Son onilliyin əsəri"* kimi dəyərləndirilən bu mətnin ardınca müəllifin fərqli müstəvidə qələmə aldığı "Sehrbazlar dərəsi", "Unutmağa kimsə yox…" romanları da ədəbi mühitdə ciddi rezonansla yadda qalmış, ölkə hüdudlarından kənarda dəfələrlə nəşr olunaraq, milli nəsrin potensialını dünyaya bəyan etmişdir. *"2011-ci ildə yazıçının hər üç romanı Nobel mükafatına təqdim olunan əsərlərin siyahısında qeydiyyatdan keçmişdir"* [15].

Nasirin 2019-cu ildə işıq üzü görən "Sirlərin sərgüzəşti" romanı postmodernist konsepsiyanın əsas prinsiplərini ehtiva etməklə yanaşı, yazıçının bütövlükdə nəsrini, bədii və elmi yaradıcılığını çoxsaylı qatlarla birləşdirir, ədibin tarixi konseptə, mifik təfəkkürə münasibətini bütün yönləri ilə əks etdirir.

Müasir dünya ədəbiyyatının aparıcı mövzuları ilə həmahəng səsləşən Kamal Abdullanın nəsr əsərləri bədii düşüncənin tədqiqat obyektini yeni ideya, forma-məzmun komponentləri, düşüncə stereotipləri ilə zənginləşdirir. Ədəbi mövqeyi bu kontekstdə

---

[14] Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 clddə] / elmi redaktoru İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – c. 2. – 2016. – 234 s.

[15] Yenə orada: s. 151

möhkəmlənən Azərbaycan nəsri modern ənənələr formalaşdırır, yeni inkişaf mərhələsinə qədəm qoyur.

Dissertasiyanın “**Tarixilik bədii nəsrin başlıca komponenti kimi”** adlı ikinci fəsli üç paraqrafdan ibarətdir. Fəslin *“Kamal Abdullanın nəsrində tarixi gerçəkliyin müasir dərki”* adlı birinci bölməsində tarixi mövzulara müraciətin inkişaf tendensiyası izlənilmiş, tarixilik prinsipi müasir elmi-nəzəri müddəalar çərçivəsində şərh edilmişdir. Paraqrafda Kamal Abdullanın bəhrələndiyi ədəbi mənbələr üzə çıxarılmış, tarixi yaddaşın yazıçının nəsr yaradıcılığında başlıca əlamət və keyfiyyətləri konkretləşdirilmiş, ədibin mövzuya yanaşma üslubu nəzərdən keçirilmişdir.

Yazıçının tarixi yaddaşın epik təsvirini verən hekayələrində milli keçmişlə yanaşı, bəşər tarixi, dünya mifologiyası bədii təhlilə çəkilir, gerçəkliyin təməl prinsipləri, həyatın mahiyyəti bütün məkanlarda, sivilizasiyalarda aranır. Bu səbəbdən tarixilik təkcə milli dəyərlərin deyil, həmçinin ümumdünya mədəniyyətinin təcəssümü kimi yüksək poetik məzmun kəsb edir, bəşəri nailiyyətlər eyni səviyyədə qəbul edilir. Tarixi gerçəkliyi bədii düşüncə müstəvisində təcəssüm etdirən nəsr əsərləri bədii şərtiliyi, simvolika və ümumiləşdirməni gücləndirərək tarixi yaddaşın bədii obrazında yeni məntiq modelləri, bədii-estetik funksionallıq formalaşdırır, bəşərin sakral keçmişi ilə mənəvi bağlar möhkəmlənir. Beləliklə, insan xislətinin açılmamış qatları fəlsəfi-psixoloji çalarlarla vərəqlənir, heç bir məqam mütləqləşdirilmir, tarix bütləşib ilahiləşdirilmir.

Kamal Abdullanın bəhrələndiyi ədəbi-tarixi qaynaqlar daha çox əsərin məzmun qatında ortaya çıxır. Lakin bəzi məqamlarda hadisələrin təsviri, ilk baxışda, yazıçı təxəyyülünün məhsulu kimi görünsə də, ədib qədim mətnlərə, dəqiq tarixi mənbələrə istinad edir. Məsələn, araşdırma zamanı Kamal Abdullanın “Çəngəl çiçəyi” hekayəsinin Herodotun məşhur “Tarix” əsərinin ikinci kitabında (Yevterpa) [16] yer alan Misirin XXVI Sais sülaləsinin banisi – I Psammetix haqqında məlumatlar əsasında qurulduğu müəyyən

---

[16] Геродот. История в девяти книгах. Перевод и примечания Г.А.Стратановского / Геродот. – Ленинград: издательство «Наука», – 1972. – 600 с.

olunmuşdur. Kamal Abdullanın hekayələrində dövrün səciyyəvi xüsusiyyətlərinin yığcam şəkildə təsviri həm oxucunu böyük tarixi xronologiyanın geniş panoramı ilə tanış edir, həm də hadisələrin mahiyyəti dərindən dərk olunur. Yazıçının romanlarında tarixi-bədii dərkin epik təcəssümü nəsrin problematikasını yeni konsepsiyalarla zənginləşdirir, sakral dəyərlərin, tarixi şəxsiyyətlərin postmodernist prizmasından dəyərləndirilməsi yeni düşüncə estetikasının ədəbi mövqelərini möhkəmlədir.

Aparılan tədqiqatlar Kamal Abdullanın bədii nəsri üçün tarixi yaddaşın əhəmiyyətini, mövzu ətrafında manevr etmək imkanlarını elmi dəlillərlə əsaslandırır. Tarixi konsepti bədii-estetik yaddaşa çevirən nəsr nümunələrinin çağdaş dövr üçün mühüm aktuallıq kəsb etməsi ədibin yaradıcılığının başlıca ideya-bədii məziyyətini təşkil edən müasirlik prinsipini gücləndirir.

Dissertasiyanın ikinci fəslinin *"Yeni insan konsepsiyası: tarixi şəxsiyyətlər və müasir qəhrəman tipi"* adlanan ikinci paraqrafında qəhrəman problemi bədii düşüncənin başlıca amili kimi şərh edilir, obraz yaradıcılığı müxtəlif ədəbi-tarixi mərhələlər üzrə səciyyələndirilir. Bildirilir ki, bütün tarixi dönəmlərdə zamanın ruhunu ifadə edən insan amili fərd ilə mühit arasında qarşılıqlı əlaqələri bədii təhlil müstəvisinə çəkir, ədəbi-estetik düşüncə obraz vasitəsi ilə yenilənir.

Bu paraqrafda Kamal Abdullanın nəsrində insan və cəmiyyət münasibətlərinin bədii inikas özəllikləri, yazıçının əsərlərində qəhrəman probleminin qoyuluşu, tarixi və mifoloji obraz yaratmaq xüsusiyyətləri şərh edilir, müqayisə və paralellər aparılır. Bildirilir ki, gerçəkliklərin ədəbi-estetik inikasında postmodernist təfəkkür konsepsiyasından yaradıcılıqla faydalanan Kamal Abdullanın zəngin obrazlar sistemi bədii nəsrdə ədəbi qəhrəman axtarışlarını modern istiqamətlərə yönəldir. Yazıçı nəsr əsərlərində mifoloji və arxetip personajlardan məharətlə yararlanır, dünya mifologiyasına, bəşər tarixinə bələdlik bu obrazların xarakterik xüsusiyyətlərinin inandırıcı boyalarla canlandırılmasına imkan verir.

Ədibin mifoloji düşüncə müstəvisində qələmə aldığı əsərlərində canlı insan surətləri ilə yanaşı, Cin ("Mənə uçmağı öyrət"), Sarı div, Kələ div, Təxtiçiraq, Nəhəngani-nəhəng, Əş-əş

pəhləvanlar, Mərcani cadu (“Gülü qah-qah xanımın nağılı”), Təkgöz (“Yarımçıq əlyazma”), Təpəgöz (“Sirlərin sərgüzəşti) və s. kimi qeyri-adi varlıqlar sehrə, tilsimə malik olsalar da, daha çox insaniləşdirilmiş surət kimi yadda qalır, bu xüsusiyyət onları digər personajların həyat fəlsəfəsinə yaxınlaşdırır. Yazıçının obrazların oxşarından məharətlə yararlanması (“Gülü qah-qah xanımın nağılı”, “Yarımçıq əlyazma”) hadisələrin izlənməsinə marağı artırır, insan şəxsiyyətinin təkrarsızlığını üzə çıxarır.

Milli bədii düşüncənin qədim ədəbi-mənəvi mənbəyi olan “Kitabi-Dədə Qorqud” boylarını postmodernist düşüncə kontekstində dekonstruksiya edən “Yarımçıq əlyazma” romanında Oğuz igidlərinin psixoloji portretlərinin qeyri-ənənəvi modellə cilalanması, obrazların mənəvi keyfiyyətlərinin incə çalarlarınacan qabardılması personajların əzəmətini artırır, mətnin həyati cizgiləri qüvvətlənir. Yazıçı təxəyyülünün dərinliklərində gizlənən mifopoetik struktur və bədii-fəlsəfi qənaətlər “Sehrbazlar dərəsi” romanında obrazların təsvirində ortaya çıxır, personajların psixoloji cizgilərinin ustalıqla açılması insan xislətini bütün ziddiyyətləri ilə üzə çıxarır, sərt həyat həqiqətlərini anlamağa kömək edir. “Unutmağa kimsə yox...” romanında yeni qəhrəman axtarışlarının uğurlu həlli milli xarakterin orijinal təmsilçilərini ortaya çıxarır: əsərin aparıcı surətlərindən olan F.Q. müstəqillik dövrü Azərbaycan nəsrində monumental obraz kimi səciyyələndirilir, idraki-intellektual çalarlarla cilalanan Bəhramın müdrik əyalət insanı kimi təqdimi bədii gerçəkliyin yeniləşməsinə xidmət edir.

Aparılan araşdırmalar Kamal Abdullanın bədii nəsrində tarixi-mifoloji gerçəkliyə yeni intellektual baxışın obraz yaradıcılığında da ortaya çıxdığını təsdiqləyir. Milli xarakteri bəşəri çalarlarla təsvir edən bədii nümunələrdə mif qəhrəmanlarının, tarixi yaddaşda “daşlaşmış” obrazların portretinə edilən fərqli mənəvi-psixoloji cizgilər çağdaş Azərbaycan nəsrində yeni qəhrəman probleminin həllini postmodernist düşüncə müstəvisinə yönəldir. Bu nəsrdə bədii xarakter səviyyəsinə yüksələn mifoloji və arxetip personajlar bəzən ciddi xətalara, yanlışlıqlara yol versələr də, ədibin qəhrəman konsepsiyasının təməlində dayanan insana məhəbbət prinsipi özünü

qabarıq büruzə verir, bu yaradıcılığın əsas mahiyyətini insan amili təşkil edir.

Dissertasiyanın ikinci fəslinin *"Yarımçıq əlyazma" romanı: tarix postmodernizm kontekstində"* adlanan üçüncü paraqrafında "Kitabi-Dədə Qorqud" motivləri əsasında qələmə alınmış bədii əsərlərin ədəbi-estetik düşüncədə yeri müəyyənləşdirilmiş, Dədə Qorqud ədəbiyyatının təşəkkül tarixi, inkişaf mərhələləri təhlil olunmuşdur.

Bildirilir ki, Kamal Abdullanın qorqudşünaslıq sahəsindəki elmi nailiyyətləri bədii yaradıcılıq təcrübəsində rişələnir, epos poetikasının dərin qatlarına nüfuz edən "Yarımçıq əlyazma" romanı mifik-tarixi yaddaşımızı fərqli prizmadan mənalandırır, Dədə Qorqud ədəbiyyatı orijinal elmi-fəlsəfi yozum ilə fəallaşır. Dissertasiyada "Yarımçıq əlyazma" romanı postmodernist estetikanın aparıcı kateqoriya və prinsipləri çərçivəsində təhlil edilir, həmçinin mətni ənənəvi nəzəri metodlarla səciyyələndirən bəzi qənaətlər – ədəbi-tarixi irsimizin postmodernist kontekstdə təhlili, sakral qəhrəmanlıq kultunun dekonstruksiyası, mətnin hissələri arasında hadisə əlaqələrinin olmaması və s. iradlar çağdaş elmi-nəzəri prinsiplər müstəvisində şərh olunur. Roman haqqında formalaşan ənənəvi baxış bucağı müasir elmi təhlil süzgəcindən keçirilərkən süjetlər arasında müxtəlif əlaqə modelləri, çoxsaylı tellər konkret müddəalar əsasında təhlil edilir, yazıçının obrazlara seçdiyi adların məna kodları araşdırılır, əsərin janr modifikasiyası ilə bağlı elmi-nəzəri qənaətlər ümumiləşdirilir. Bildirilir ki, postmodernist oyun estetikasını qabarıq şəkildə ifadə edən "Yarımçıq əlyazma" romanında yeni paradiqmanın əsas prinsiplərinə uyğun olaraq müxtəlif tarixi mərhələlər, mifopoetik irs bütöv mətn kimi bir-birinə qovuşaraq fraqmentar, xaotik, sıxılmış zaman prinsipi ilə növbələşir, məkan çərçivəsində sərbəst gəzişmələr mətnə zamansızlıq ahəngi qatır.

Araşdırmalar Azərbaycan ədəbiyyatının maraq dairəsinə düşən postmodernist yaradıcılıq axtarışlarının ədəbi mövqelərini getdikcə möhkəmlətdiyini, bir vaxtlar "Yarımçıq əlyazma" romanına ciddi müqavimət göstərən ədəbi tənqidin çağdaş dövrdə az qala hər yeni əsərdə postmodernist cizgilər aradığını təsdiqləyir. Bu paradiqmanın bütün vəziyyətlərdə yararlı olmasını diqqət mərkəzinə çəkən

Umberto Ekonun təbirincə desək, indi hər hansı əsəri tərifləmək istəyəndə postmodernizm anlayışına müraciət edilir [17] ki, bütün bunlar yeni estetikanın müasir dəyərləri simvolizə etməsindən qaynaqlanır. Postmodernist fəlsəfənin yazıçı düşüncəsinə verdiyi geniş sərbəstlik, plüralizmi dəstəkləməsi və s. xüsusiyyətlər bu konsepsiyanın bir vaxtlar Qərb ədəbiyyatında olduğu kimi, milli ədəbi düşüncə sferasında da bütün potensiyası ilə parlayacağını proqnozlaşdırır.

Dissertasiyada "Yarımçıq əlyazma" romanında təsvir edilən tarixi dövrün daşlaşmış ənənələrin, saf əqidənin hələ də saxlandığı zaman olduğu, əsərdə komik müstəvidə təsvir edilən qəhrəmanların sədaqət, sadiqlik, fədakarlıq kimi bir sıra insani keyfiyyətlərinin qabardıldığı diqqətə çatdırılır. Şahlara, bəylərə, xana göstərilən sonsuz sədaqət və ehtiramın yazıçının nəsr əsərlərinin əsas ideya-məzmun qatını təşkil etməsi, hökmdara asi olmamaq qadağasının bu yaradıcılıqda ana xətt kimi keçməsi konkret müddəalar əsasında şərh olunur. Dissertasiyada mətnin təqdim etdiyi bəzi məqamlardan yararlanmaqla əsərin tarixilik prinsipi bərpa olunur, yazıçının məlum tarixi hadisələrə paralel versiyalar irəli sürməsinin mahiyyəti araşdırılır.

Aparılan təhlillər postmodernist paradiqmanın "Yarımçıq əlyazma" romanına geniş anlamlar, məna potensialı bəxş etdiyini, əsərin hüdudlarını çərçivələməyə istiqamətlənən hər hansı şərhə qarşı çıxdığını təsdiqləyir. "Yarımçıq əlyazma" romanında mifik-tarixi irsimizin postmodernist yozumu bizə tarixi yaşadan yeni mənbəni nişan verir. Romanın məntiqi təsdiq edir ki, tarix təkcə xalqın yaddaşını əxz etmiş mifologiyada, ayrı-ayrı tarixi faktlarda, salnaməçilərin qeydlərində və s. mənbələrdə deyil, həmçinin bu salnamələrin canına hopmuş sirli məna qatlarında, gizli mətləblərdə yaşayır.

Dissertasiyanın **"Mifoloji yaddaş çağdaş bədii düşüncə aynasında"** adlanan üçüncü fəsli üç paraqrafdan ibarətdir. *"Kamal Abdullanın yaradıcılığında mifologizm"* adlı birinci paraqrafda mifologizm ədəbi-mədəni sferada yenilənmənin başlıca məziyyəti

---

[17] Eco, U. Postscript to the Name of the Rose / U.Eco. – New York: Harcourt, – 1985. – p.75

kimi səciyyələndirilir, mifoloji təfəkkürün bədii mətnin predmetinə çevrilmə prosesi geniş şəkildə izlənilir.

Bildirilir ki, bütün tarixi-ədəbi mərhələlərdə yüksək poetik potensialı ilə fərqlənən mif – bədii mətn münasibətləri Xalq yazıçı Kamal Abdullanın ədəbi-fəlsəfi görüşlərini bütünlüklə ehtiva edir, mifopoetik qaynaqlardan yaradıcılıqla bəhrələnmə mifik təfəkkür ilə çağdaş ədəbi düşüncənin bədii-estetik ideallarını bir-birinə yaxınlaşdırır. Bədii təhlilə çəkilən mifoloji motivlərin çağdaş problemlər bucağından mənalandırılması, müasirlik prinsipinin yüksək bədii-estetik mahiyyət kəsb etməsi nasirin sənət uğurlarını şərtləndirir.

Bu yaradıcılıqda təhtəlşüura genenik kodlarla həkk olunmuş mifopoetik elementlər maraqlı epizodlarla təcəssüm tapır, uçuşun timsalında ("Uçuş" hekayəsi) insan xislətinin mahiyyəti açılır, mənəvi yüksəliş bəşərin ən ali məqamı kimi önə çəkilir. Reallıqla irreallığın bir-birinə qarışdığı "Mənə uçmağı öyrət" hekayəsində isə uçmaq insanı mənən saflaşdırmaqla yanaşı, ilahi eşq məqamına yüksəldir. Müəllifin folklor poetikasının dil-üslub qaynaqlarına söykənən bənzərsiz nəsr əsərləri ("Gülü qah-qah xanımın nağılı") şirin təhkiyə, yeni ifadə forması, obrazlı deyim tərzi ilə ədəbi dilimizi zənginləşdirir. Qədim miflərin interpretasiyasına fərqli kontekstdən yanaşmalar ("Parisin seçimi", "Göyəzən dağının ilahəsi", "Kölgə", "Labirint") mifi statik formadan çıxararaq yazıçının bədii-estetik idealları ilə mənalandırır. Ədibin neomifoloji düşüncə müstəvisində qələmə aldığı hekayələri mükəmməl bədii forma, dərin fəlsəfi məzmun, yeni mifoloji konstruksiyalar sərgiləyir, mif poetikası özünün yüksək mənəvi-mədəni dəyərlərinə yüksəlir. Mifin pafosu mifopoetik süjet üzərində qurulmayan əsərlərdə də ("Üçrəng pişik balası") duyulur, gerçəkliyin müxtəlif təzahürləri, insanın hissi-ruhi vəziyyəti zəngin duyğular koleydoskopunda bir-birinə qarışır. Beləliklə, Kamal Abdulla *"həqiqəti səthdə yox, dərində axtarır. Onun yazıçı məntiqinə görə üzdə olan hər şey yalandı, illüziyadır, həqiqət gizlində olandı"* [18].

Fəslin *"Sehrbazlar dərəsi" romanı: mifik-fəlsəfi problemlər"* adlı ikinci paraqrafında yazıçının metafizik dünyagörüşünün ədəbi

---

[18] Abdulla, K. Labirint / K.Abdulla. – Bakı: Qanun nəşriyyatı, – 2012. – s. 6

məhsulu olan “Sehrbazlar dərəsi” romanında arxaik təfəkkürdə yaşayan atributlar, təhtəlşüurda simvollaşan anlamlar, mistik-fəlsəfi mündəricə araşdırılır. Bildirilir ki, roman şəxsiyyət və cəmiyyət münasibətlərini fəlsəfi aspektdə bədiiləşdirir, yazıçının sərhədsiz təxəyyülü mifoloji mədəniyyət kodlarından yaradıcılıqla bəhrələnir, təhtəlşüurda simvollaşan anlamlar yeni məna çalarları ilə zənginləşir. Rənglərin qavranmasının metafizik aspektlərinə, onların psixoloji təsir imkanlarına yaxından bələd olan ədib bəşəriyyətin ilkin çağlarının inam və etiqadlarını rəng çalarlarında təcəssüm etdirir, rənglərin harmoniyası hadisələrin dərkinə, əsərin ideyasının açılmasına yardım edir. Bu cəhətdən, romanın poetikasında xüsusi məna kəsb edən ağ rəng mətnin semantikasında, müəllif ideyasının çatdırılmasında aparıcı vasitələrdəndir. Əksər xalqların inanclarında, arxaik təfəkkürdə saflıq, uğur, xoşbəxtlik və günahsızlığı ehtiva edən ağ rəng romanda mifoloji mədəniyyət kodlarını daşıyaraq məsumluğun, ilahiliyin rəmzidir. İşığın mahiyyətində dünyanın dərkinin dayandığını göstərən ədib yaradılışa olan fəlsəfi baxışlarını işıq-qaranlıq əksliyinin timsalında izah edir. Gerçəkliyin bədii-estetik dərkində işığın daşıdığı vacib informasiya həyatın bütün sahələrini sarmış rasionalizmin ideoloji əsaslarını sarsıdır.

İbtidai təfəkkürdə formalaşan görünməzlik motivi hazırda Qərb ədəbiyyatında yeni forma-məzmun komponentləri ilə zənginləşsə də bu mifoloji kontekst ümumilikdə milli söz sənətinin bədii problematikasına gətirilməmişdir. Ədəbi prosesdəki bu boşluq Kamal Abdullanın neomifoloji təfəkkür müstəvisində qələmə aldığı nəsr əsərlərində aradan qaldırılmağa cəhd göstərilir, görünməzlik aktı “Sehrbazlar dərəsi” romanında mistik-fəlsəfi kontekstdə təqdim edilir. Əsərdə bir sıra məfhumların (Görükməz Təpə, görükməz məmləkət) görünməzlik xüsusiyyətlərinin üzə çıxması, bu məkanların mistik boyalarla təsviri mifoloji dünya modeli ilə müasir kvant fizikasının qabaqcıl nailiyyətlərini sintez edir.

“Sehrbazlar dərəsi” romanı bədii-estetik təfəkkürdə şamanlığı mifoloji-ritual praktika kimi təcəssüm etdirən nadir ədəbi nümunə kimi də diqqət çəkir. Əsərdə şaman dünya modeli, şaman ayinləri ilə əlaqədar məqamlar əsasən elmi ruhiyyat bilicisi Səyyah sehrbazın vasitəsi ilə həyata keçirilir. Sufi-dərviş dünyagörüşünün əsas

təmsilçisi olan bu arxetip personajın ekstaz vəziyyətdə ruhlarla əlaqə yaratmaq qabiliyyəti, ruhlarla bağlı bilgiləri obraza yeni elementlər qazandırır, ədəbi düşüncədə şaman dünya modelinin mövqeləri möhkəmlənir. Hadisələrin təsvir dinamikasının belə mistik məqamlar, gərgin psixoloji situasiyalarla davam etdiyi "Sehrbazlar dərəsi" romanında arxaik təfəkkür sistemində simvollaşan atributların ədibin estetik idealları ilə mənalandırılması insan psixologiyasının ən dərin qatlarında gizlənmiş mahiyyəti ortaya çıxarır.

Üçüncü fəslin *"Unutmağa kimsə yox..." romanında paralel dünyaların ahəngi"* adlı üçüncü paraqrafında ilk rüşeymləri mifologiyada qoyulan kainatların çoxluğu ideyasının yazılı ədəbiyyata gətirilməsi, çoxdünyalıq konsepsiyasının bədii düşüncədə inkişaf tendensiyası tarixi ardıcıllıqla izlənilir. Bildirilir ki, Xalq yazıçısı Kamal Abdullanın "Unutmağa kimsə yox..." romanı oxşar mövzulu ədəbi təcrübələrdən fərqli olaraq nümayiş etdirdiyi yüksək estetik mövqe ilə mükəmməl bədii sənət nümunəsi kimi diqqəti cəlb edir. Əsərdə çoxdünyalıq konsepsiyası fərqli baxış müstəvisində bədii predmetə çevrilir, təqdim edilən paralel dünyalar modeli kosmoqonik dünyagörüşü ilə mifoloji təfəkkürü birləşdirir, kainat və insan münasibətlərinin bədii təhlilinə geniş imkanlar açılır.

Hazırda çağdaş kvant fizikasının araşdırma predmetinə daxil olan paralel dünyalar konsepsiyası dərin elmi təhlil və təcrübələrə cəlb edilir, bu istiqamətdə genişlənən fundamental tədqiqatlar başqa ölçülərdə sonsuz sayda dünyaların mövcud olması tezisini elmi təsdiqinə yaxınlaşdırır[19]. Bu kimi elmi biliklərə dərindən bələd olan Kamal Abdullanın "Unutmağa kimsə yox..." romanında yazıçı təxəyyülündən qaynaqlanan məqamlar gerçəkliyin yeni düşüncə müstəvisində ifadəsi olsa da, qabaqcıl elmi nəzəriyyələrə əsaslanır. Romanın əsas təməl prinsiplərindən olan möhtəşəm Ahəng, paralel dünyalar konsepsiyası, "hadisələrin üfüqü" kimi dərin bədii-fəlsəfi anlayışlar çağdaş kvant fizikasının aparıcı müddəalarını bədii düşüncəyə transfer edir. Romanda hər epizodun müxtəlif variantlarda

[19] Каку, М. Параллельные миры: Об устройстве –м ироздания, высших измерениях и будущем Космоса / М. Каку. – Москва: ООО Издательство «София», –2008. – с. 171.

təcəssümü bədii nəsrin predmetində paralel dünyalar konsepsiyasının yerini möhkəmlədir, həmçinin postmodernist estetikanın əsas xüsusiyyətlərindən olan modelləşdirilmiş süjet elementlərini ehtiva edir. Bu kimi amillər güclü harmoniya yaradaraq janrın daşlaşmış qəliblərini dağıdır, əsərdə bütün dolğunluğu ilə hifz edilən müasirlik prinsipini ön sıralara çıxarır. Paralel dünyalar ideyası əsərin qəhrəmanları tərəfindən də ortaya atılır, bu mövzuda aparılan söhbətlər, düşüncələrdəki harmoniya onları bir-birinə bağlayan telləri möhkəmlədir, onları gerçəkliyin dərkinə yaxınlaşdırır.

Mətnə müxtəlif süjet xətləri kimi daxil olan ayrı-ayrı tarixi dövrlər, qədim Ellada əsatirləri, yuxugörmələr, yağışın yerdən göyə yağması, eyni əhvalatın müxtəlif versiyalarda təqdimi və s. amillər paralel dünyalar konsepsiyasının gerçəkləşməsinə yardım edir. Romanda paralel dünyalar kontekstində paralel müqayisələrə yer verilməsi, süjet daxili paralelliklər mükəmməl bədii sistem sərgiləyərək mifopoetik konteksti qüvvətləndirir. Bütün bu və ya digər paralelliklər müəllifin əsas qayəsini – "Unutmağa kimsə yox..." romanında qoyulan "təkcə bu dünyada deyil, sonsuz sayda paralel dünyalarda da yaşayın" ideyasını bütün yönləri ilə ehtiva edir, azad düşüncənin hüdudları sonsuzluğa qədər genişlənir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatda əldə edilmiş əsas müddəalar və elmi-nəzəri qənaətlər ümumiləşdirilmişdir:

– Xalq yazıçısı Kamal Abdullanın Qərb düşüncə konsepsiyaları ilə cilananan zəngin nəsr yaradıcılığı ədəbi problemləri dolğun və hərtərəfli şəkildə əks etdirməsi ilə diqqət çəkir, bədii düşüncəni orijinal ideya-məzmunə, forma-üslub çalarları ilə cilalayaraq ədəbi prosesə yeni poetik nəfəs bəxş edir.

– Nasirin dərin fəlsəfi mətləblər ortaya qoyan poetik düşüncəsi hekayə janrında konseptual bədii-estetik yanaşmalar ortaya qoyur, yüksək ümumbəşəri dəyərlər əxz edən bu əsərlər poetik qüdrəti, informasiya genişliyi, böyük mətləbləri kiçik mətnlərə sığışdırması ilə janrın dinamikliyinə xidmət edir, nəsrin potensialı üzə çıxır.

– Gerçəkliyi postmodernist təfəkkür fəlsəfəsinin prinsipləri çərçivəsində dəyərləndirən bu yaradıcılıqda tarixi kontekst bədii mətnlərin mövzu dairəsini şərtləndirir, bəşəri nailiyyətlər eyni səviyyədə qəbul edilir, tarix bütləşib ilahiləşdirilmir.

– Kamal Abdullanın nəsr əsərlərində dünyanın mifopoetik dərkinə istiqamətlənən ədəbi-estetik cəhd insan ruhunun sığmadığı maddiyyatın sərhədlərini aşır, azad düşüncənin üfüqləri genişlənərək rasionalizmin ideoloji əsasları sarsılır.

– Kamal Abdullanın nəsrində yeni bədii-estetik funksionallıq tarixi-mifoloji kontekstə yeni baxış konsepsiyası formalaşdırır.

– "Yarımçıq əlyazma" romanında mifik-tarixi irsimizin postmodernist yozumu tarixi yaşadan yeni bir mənbəni nişan verir: tarixi yaddaş təkcə xalqın yaddaşını əxz etmiş mifologiyada, ayrı-ayrı faktlarda, salnaməçilərin qeydlərində və s. mənbələrdə deyil, həmçinin bu məxəzlərin canına hopmuş sirli məna qatlarında, gizli mətləblərdə yaşayır.

– Ədibin "Sehrbazlar dərəsi" romanında mifopoetik təfəkkürdə yaşayan arxaik atributların, təltəlşüurda simvollaşan düşüncə modellərinin yeni rakursda mənalandırılması insan psixologiyasının açılmamış səhifələrini vərəqləyir, diqqəti gerçəkliklərin dərin qatlarına yönəldir.

– "Unutmağa kimsə yox..." romanı mifopoetik təfəkkür ilə müasir kvant fizikasının qabaqcıl nəzəriyyələrini sintez edir, ortaya çıxan çoxsaylı paralelliklər kainat və insan münasibətlərinin bədii-fəlsəfi dərkinə yeni imkanlar açır.

– "Sirlərin sərgüzəşti" romanında yazıçının bütünlükdə nəsr yaradıcılığı ələnir, mifik kodlara açar verilir.

– Yazıçının nəsr əsərlərində tarixi və mifik obrazların qeyri-ənənəvi modellə cilalanması bədii mətnin həyati cizgilərini qüvvətləndirir, bu yaradıcılığın əsas predmetini insana məhəbbət prinsipi təşkil edir.

– Ümumilikdə Kamal Abdullanın bədii nəsrində tarixi-mifoloji mahiyyət dünyanın bədii-fəlsəfi anlamına, insanın həqiqi missiyasının dərkinə yönəlir, fərdin öz-özünə verdiyi "mən kiməm, niyə yaradılmışam?" sualına cavab tapmağa, kainatın sirlərini açmağa cəhd göstərilir. Çağdaş ədəbi-fəlsəfi dəyərlər formalaşdıran bu məziyyətlər bədii düşüncənin inkişaf mövqeyini modern istiqamətdə müəyyənləşdirir, Kamal Abdullanın bədii nəsrinin bütün xüsusiyyətləri ilə müasirlik prinsipinə xidmət etdiyini təsdiqləyir.

**Dissertasiyanın əsas məzmun və elmi-nəzəri müddəaları müəllifin respublika və xarici ölkələrdə dərc olunmuş elmi məqalələrində, konfrans materiallarında öz əksini tapmışdır:**


1. Kamal Abdullanın romanlarında trilogiya anlamı // – Bakı: Filologiya məsələləri, – 2014. № 3, – s. 334-340.
2. Çağdaş dövrdə roman janrının inkişaf xüsusiyyətləri // – Bakı: İpək yolu, Azərbaycan Universitetinin elmi jurnalı, – 2014. №4, – s. 114-122.
3. Görünən bağın gözəgörünməz bağbanı // – Bakı: Filologiya məsələləri, – 2014. № 4, – s. 382-388.
4. Müstəqillik dövrü Azərbaycan nəsrində elmi-fantastik və detektiv janrlar // IV. Uluslararası Türk Dünyası Araştırmaları sempozyumu, – Niğde: – 26-28 nisan, – 2017, – s. 111-116.
5. Kamal Abdullanın bədii yaradıcılığı Azərbaycan ədəbiyyatında // IV. Uluslararası Türk Dünyası Araştırmaları sempozyumu, – Niğde: – 26-28 nisan, – 2017, – s. 117-123.
6. Müasir Azərbaycan nəsrində tarixi mövzu (Kamal Abdullanın hekayələri əsasında) // – Bakı: Elmi əsərlər, Dil və ədəbiyyat seriyası, – 2018. № 1, – s. 190-196.
7. Kamal Abdullanın nəsr yaradıcılığında epos ənənəsi // –Bakı: Dədə Qorqud, Elmi-ədəbi toplu, – 2018. № 1, – s. 146-154.
8. Çağdaş Azərbaycan ədəbiyyatı ictimai-siyasi proseslər və ədəbi təmayüllər konteksində // – Bakı: Əlyazmalar yanmır (elmi məqalələr toplusu), AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun elmi məqalələr toplusu, – 2018. № 1(6), – s.49-55.
9. Müasir Azərbaycan nəsri memuar nümunələrində // – Bakı: Pedaqoji Unuversitetin xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2018. c. 66, № 1, – s.30-36.
10. Kamal Abdullanın bədii nəsrinin bəzi xüsusiyyətləri // Gənc tədqiqatçıların I Respublika elmi-praktik konfransının materialları, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş konfrans, – Bakı: – 20 aprel, – 2018, – s. 198.

11. Kamal Abdullanın hekayələrində tarixi şəxsiyyətlər və mifik obrazlar // Proceedings of the International Conference on Sustainable Development and Actual Problems of Humanitarian Sciences, Dedicated to the 95 th anniversary of the National Leader Haydar Aliyev, – Baku: – May 14-15, – 2018, – p. 338-340.
12. Bədii düşüncədə paralel dünyalar konsepsiyası (Kamal Abdullanın "Unutmağa kimsə yox..." romanı əsasında) // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi, – 2018. № 3, – s.117-123.
13. Kamal Abdullanın "Yarımçıq əlyazma" romanı: tarix müasirlik kontekstində // – Bakı: İpək yolu, Azərbaycan Universitetinin elmi jurnalı, – 2019. № 3, – s. 146-153.
14. Kamal Abdullanın romanlarında müasir qəhrəman tipi // –Bakı: Elmi əsərlər, Dil və ədəbiyyat seriyası, – 2019. № 1, – s. 269-274.
15. Мистико-мифическая суть романа «Долина кудесников» Кямала Абдуллы и особенности ее художественного проявления // – Ужгород: Закарпатськı фiлологiчнi студiї, – 2019. т. 2, №10, – с. 128-133.
16. Gerçəkliyin bədii-estetik dərkində rəng çalarları (Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanı əsasında) // Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda multidissiplinar Respublika elmi-praktik konfransı, – Bakı: – 1 may, – 2021, – II hissə – s. 135-139.

Dissertasiyanın müdafiəsi 24 dekabr 2021-ci il tarixində saat $11^{30}$ AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31–Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, İstiqlaliyyət küçəsi 53. AZ 1001. AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 23 noyabr 2021-ci il tarixində zəruru ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.11. 2021

Kağızın formatı: A5

Həcm: 42274

Tiraj: 100